Gimnaziyada qonaqları Azərbaycan Respublikası təhsil nazirinin müavini Firidun Qurbanov salamlayıb.

Təhsil nazirinin müavini Firidun Qurbanov və gimnaziyanın direktoru Sevda Quliyeva qonaqlara bu təhsil müəssisəsi barədə məlumat veriblər. Bildirilib ki, hazırda 1164 şagirdin təhsil aldığı gimnaziyanın 47 məzununun hamısı bu il ali məktəblərə qəbul olub. Onlardan 9-u xaricdə təhsil alır.

Ailə, Qadın Məsələləri üzrə vitse-prezidenti Şəhindoxt Mövlaverdi öz növbəsində İran təhsil sistemi haqqında məlumat verib.

Qonaqlar şagirdlərin rəsm işlərindən ibarət sərgiyə baxıb və məktəbin sinif otaqları ilə tanış olublar. İran nümayəndə heyəti şagirdlərin nümayiş etdirdiyi ədəbi-bədii kompozisiyanı xüsusi maraqla izləyiblər.